**Orucova Aynur**
*AMEA Tarix İnstitutu, magistr*
*aynur.orucova1995@gmail.com*

# QAFQAZ İSLAM ORDUSUNUN ÇAĞDAŞ VƏTƏN TARİXŞÜNASLIĞI

**Açar sözlər:** Azərbaycan Xalq cümhuriyyəti, Qafqaz İslam Ordusu, tarixşünaslıq
**Key words:** Azerbaijan People's Republic, Caucasian Islamic Army, historiography
**Ключевые слова:** Азербайджанская Демократическая Республика, Кавказская Исламская Армия, историография

Azərbaycanın tarixi taleyində və dövlətçiliyimizin inkişafında mühüm mərhələ olan AXC dövrü, Qafqaz İslam Ordusunun yaradılması və onun müxtəlif hərəkatlarda iştirak etməsi bu gün Azərbaycan tarixşünaslığında ən aktual problemlərdən biridir. AXC-nin iki illik tarixinin maraqlı səhifəsini təşkil edən Qafqaz İslam Ordusunun yaranması, onun Azərbaycanın ərazi bütövlüyü uğrundakı mübarizəsi barədə əsərlərin yazılması, tədqiqatların aparılması tarixşünaslığımızın ən əhəmiyyətli məsələlərindəndir.

Nəsiman Yaqublunun bu mövzu ilə bağlı bir neçə əsəri mövcuddur. Bu əsərlərdən 2013-cü ildə nəşrdən çıxmış "Qafqaz İslam Ordusu Azərbaycanda", 2012-ci ildə çap olunmuş "Qafqaz İslam Ordusu və Nuru Paşanın Azərbaycanda izləri", 2010-cu ildə işıq üzü görmüş "Bakının qurtuluşu" adlı əsərlərinin adlarını çəkmək olar. Bakının qurtuluşunun 95 illiyinə həsr olunmuş " Qafqaz İslam Ordusu Azərbaycanda" əsəri milli istiqlal mübarizəmizin ən şanlı səhifələrindən, ən mühüm-əhəmiyyətli hadisələrindən olan Qafqaz İslam Ordusunun Bakının qurtuluşu uğrunda mübarizəsindən, Bakının Qurtuluşu tarixindən bəhs edir. Əsər dörd fəsildən, 210 səhifədən ibarətdir. Birinci fəsildə Azərbaycanın istiqlaliyyətinin elan edilməsi, Osmanlı dövləti ilə əlaqələrin qurulması, Nuru Paşanın başçılığı ilə Qafqaz İslam Ordusunun Azərbaycan torpaqlarının azad edilməsində göstərdikləri qəhrəmanlıqlar, Nuru Paşanın cəsurluğu, Bakının bolşevik-daşnaklardan azad edilməsi və eyni zamanda Azərbaycanın digər bölgələrinin azad edilməsindən bəhs olunur. 1917-ci ilin sonlarından ölkədəki ictimai-siyasi hadisələri təsvir edən müəllif Xalq Cümhuriyyətinin yaranması prosesini aydınlığı ilə yazmışdır. Kitabda Cümhuriyyətin yaranması ilə bağlı xarici ölkə alimlərinin və tədqiqatçılarının fikirləri də öz əksini tapmışdır. Professor Herbert Duda : " həqiqi millətçiliyin lüzumu ilk öncə Azərbaycanda qavrandı və bütün türk irqdaşlarını kültür baxımından birləşdirmək məfkurəsinə orada çalışıldı". Professor Tadeuş Svyatoçovski: " indiyə qədər coğrafi bir bölgənin adı olan Azərbaycan artıq iki milyonluq bir dövlətin adı idi. Tatarlar, Transqafqaziya müsəlmanları və Qafqaziya türkləri kimi dəyişik isimlərlə anılan xalq artıq rəsmən azərbaycanlı olmuşdu". [11, s. 10] Müəllif 28 may tarixini " Azadlığa qovuşan bir insan kütləsinin hürriyəti simvolu" adlandırmışdı. Bakının qurtuluşu ilə bağlı aparılan siyasi və hərbi mübarizəyə də bu bölmədə baxılmışdır. Türk ordusunun azad etdiyi şəhərlər barədə qısa-qısa məlumatlar çatdırılmışdır. İkinci fəsil Bakının qurtuluşu ilə bağlı rəsmi mətbuat orqanı olan "Azərbaycan" qəzetində zəfər sevincli yazılar, Azərbaycanlı şair və yazıçıların türklərin Bakının azad olunmasındakı əməyinə həsr olnmuş bədii əsərləri öz əksini tapmışdır. İlk olaraq M.Ə. Rəsulzadənin " Azərbaycan qəzetinin 5-ci nömrəsində təbrik teleqramı verilmişdir. Eyni zamanda F.Xoyskinin " Azərbaycan" qəzetində 3 oktyabr 1918-ci il tarixli buraxılışında Nuru paşa və Xəlil paşaya təşəkkürü, N. Yusifbəylinin Azərbaycan gənclərinə müraciəti və b. diqqətə çatdırılmışdır. Eyni zamanda qurtuluşla bağlı rəsmi mətbuat orqanı olan " Azərbaycan" qəzetində çap olunmuş başqa görkəmli şəxslərin yazıları və şairlərimizin türk əsgərlərinin qəhrəmanlıqlarına həsr olunmuş şeirləri də kitaba daxil edilmişdi. Üçüncü fəsildə 15 sentyabr hadisəsi ilə bağlı Türkiyə mətbuat orqanlarında çap olunan yazılar və kitablardan danışılır. Müxtəlif illərdə qurtuluşla əlaqədar müxtəlif qəzetlərdə yazılar çap olunmuşdur. Bu materiallar arasında " Azərbaycan" Türk Kültür Dərgisində çap olunmuş yazılar da bu fəslə daxil edilmişdir. Dördüncü fəsil isə Bakının qurtuluşu ilə bağlı Almaniyada nəşr olunmuş qəzet və jurnallardakı yazılardan bəhs olunur. " Qurtuluş" , "İstiklal" qəzetlərindəki yazılar verilmişdir.





Kitabda eyni zamanda adıçəkilmiş şəxsiyyətlər haqqında da qısa-qısa məlumatlar verilmişdir. Müəllif daha çox tarixi sənədləri, yazıları, faktları olduğu kimi kitabda çatdırmağa çalışmışdır. N. Yaqublu Nuru Paşanın Gəncəyə daxil olanda M.Ə Rəsulzadənin söylədiyi fikri qeyd edir: "... Gəncə Nuru Paşanı göydən enmiş xilaskar bir mələk kimi qəbul etmişdi. Xalqın ona göstədiyi istiqlal Gəncə tarixində görünməmişdi".

Nəsiman Yaqublunun digər kitabı "Qafqaz İslam Ordusu və Nuru Paşanın Azərbaycanda izləri"-dir. Bu kitab tarixi foto-kitabdır. Kitab Qafqaz İslam Ordusu və Nuru paşanın fəaliyyət izlərinə həsr olunmuşdur. Kitabın əvvəlində həmin dövrdəki Qafqazdakı siyasi vəziyyət, Qafqaz İslam Ordusunun yaradılması, onun Azərbaycan torpaqlarının azad edilməsində keçdiyi qəhrəmanlıq yolundan, Nuru Paşanın fədakarlıqlarından danışılır. Sonra Nuru Paşanın ( Killigil) bioqrafiyası barədə məlumat verilir. Kitabda Nuru Paşanın, Qafqaz İslam Ordusunun komandanları Kazım Qara Bəkir və Nazim bəyin, Mürsəl Paşanın fotoları, Nuru Paşanın Gəncədə qaldığı evin fotoları, onun yaratdığı hərbi məktəbin binasının fotoları, türk zabitlərinin yaşadığı binanın fotoları, Yevlax və Ağdaşdan keçdikləri yolların fotoları, Göyçaydan fotolar, Bakıya doğru istiqamət aldıqları yol boyu yerlərdə türk əsgərlərinin qəbirlərinin fotoları əks olunmuşdur. Kitabda, eyni zamanda cədvəllər də verilmişdi ki, bu cədvəllərdə türk əsgərlər və zabitlərinin nəsil adları, ata adı, öz adları rütbələri, ölüm illəri, ölüm yerləri və hansı vilayətdən olduqları qeyd edilmişdi. Bu cədvəllərin ardınca azərbaycanlı şair və yazıçıların türklərə həsr etdikləri bədii əsərləri verilmişdi.[ 12]

Mövzunun tarixşünaslığı ilə bağlı bu müəllifin başqa əsərinin də adı çəkilməlidir. Bu əsər Bakının qurtuluşunun 90 illiyinə həsr olunmuş " Bakının qurtuluşu" əsəridir. 3 fəsildən ibarət olan bu əsər tariximizin ən önəmli hadisələrindən olan Bakının azad edilməsi uğrunda aparılan mübarizəyə həsr olunmuşdur. Əsərin quruluşu və daxili mahiyyəti demək olar ki yuxarıda adıçəkilmiş "Qafqaz İslam Ordusu Azərbaycanda" əsəri ilə eynilik təşkil edir. [13]

Araşdırılan mövzunun tarixşünaslığı ilə bağlı önəmli əsərlərdən biri Ağayev Yusif və Əhmədov Səbuhinin həmmüəllif olduğu " İstiqlal yürüşü 1918" əsəridir. Kitab 2009-cu ildə çapdan çıxmış və 416 səhifədir. Əsər səkkiz bölmədən ibarətdir. Beşinci bölməsi Qafqaz İslam Ordusu adı altındadır. Birinci fəsil Türkmənçay müqaviləsinin bağlanması, sülhün şərtlərinə görə ermənilərin köçürülməsi, XX əsrin ilk onilliyində baş vermiş hadisələr, Birinci dünya müharibəsi, onun doğurduğu nəticələr, bu müharibənin müstəqillik yolundakı mübarizəyə təsiri, Qafqazdakı siyasi-hərbi, ictimai-sosial vəziyyət, Mart soyqırımı, soyqırımının törədilməsinin altında yatan məqsədlər, Mart soyqırımı şahidlərinin qeydlərini əhatə edir. İkinci fəsil hadisələrin qısa xronoloji ardıcıllığından ibarətdir. Üçüncü fəsil isə Bakı soveti, onun qoşunlarının strukturu, tərkibi, sayı tərkibi, komandanlığı, silahları barədədir. Dördüncü fəsil "Densterfors"un təşkili, ingilis qoşunları, onları strukturu, say tərkibi, silah-sursatları, hərbi texnikaları barədə məlumatları əks etdirir. Beşinci fəsildə müsəlman korpusunun, Qafqaz İslam Ordusunun yaradılması, onların strukturu, silah və hərbi texnikaları, komandanlığı, Bakıya hücum zamanı bu ordunun quruluşu, sayı kimi məsələlər müəlliflər tərəfindən işıqlandırılmışdır. Altıncı və yeddinci fəsillər isə qarşı tərəflərin məqsədlərinin planlarının nə olduğunu, döyüş əməliyyatları, bu əməliyyatların gedişi, ən əsas döyüşlər, Bakı əməliyyatı, onun azad edilməsi kimi məsələləri əhatə edir. Sonuncu fəsil isə münaqişənin nəticələri adlanır. Bu fəsil Bakının azad edilməsindən sonrakı proseslər, Azərbaycan ordusunun yaradılması üçün aparılan fəaliyyətlər, münaqişənin nəticələrinin təhlili barədə qeydlərdən ibarətdir. Əsərdə hadisələrin təsviri ilə yanaşı fotolar, xəritələr də mövcuddur. Müəlliflər arxiv materiallarından və müxtəlif dillərdə yazılmış ədəbiyyatlardan istifadə etmişlər. [3]

Mövzu ilə əlaqədar əsas tədqiqat əsərlərinin müəllifi Mehman Süleymanovdur. Mövzunun tarixşünaslığına dair dəyərli əsərlərindən biri "Nuru Paşa və silahdaşları" əsəridir. Əsər giriş və 2 hissədən ibarətdir. Birinci hissə Nuru Paşanın doğulmasından ölümünədək olan həyat fəaliyyəti əks olunmuşdur. Nuru Paşanın doğum tarixi ilə bağlı ikili qeydin olduğu göstərilir. Belə ki, Nuru Paşanın doğum tarixi bəzi yerlərdə 1899-cu il , bəzi yerlərdə isə 1890-cı il kimi götürülür. Soyadı ilə, əcdadları ilə bağlı məlumatlar verilir. İlk addımlar adlanan bölmədə Nuru Paşanın hərbi məktəb qiymətlərinin siyahısı, aldığı hərbi rütbələr , Qafqaz İslam Ordusu komandanı vəzifəsinə təyin edilənədək Nuru Paşanın icra etdiyi vəzifələr, qazandığı orden və medallar da verilmişdir. Sonrakı bölmədə Nuru Paşanın Trablis müharibəsində iştirakı, buradakı hərbi fəaliyyəti ək olunmuşdur.

Verilən məlumatlar " albay C.C.S." adlanan müəllif tərəfindən yazılan "general Nuri Killigil" Trablisqarb xatirələrim" adlı əsər əsasında verilmişdir. Burada verilən xatirə məlumatları Nuru Paşanın öz dilindən deyil, müəllif tərəfindən, müəllifin dilindən qələmə alınmışdır. Mərqab təpəsinə italyanların hücumu zamanı mühasirəyə düşümüş Nuru bəyin qurtulması ilə bağlı müəllif yazırdı: " ... vəziyyətin mürəkkəbləşdiyini görən Nuru bəy həmin ərəbin köməyi ilə bir qədər geriyə, daha təhlükəsiz yerə çəkildi. Bununla belə Nuru bəy hələ də təhlükədən xilas ola bilməmişdi. Nuru Paşa xatırlayırdı ki, onların başının üstünü alan real təhlükədən qurtarmaq üçün arxada olan zeytunluğa tərəf çəkilməli idi... Nuru bəy bütün gücünü toplayıb ona ən yaxın olan zeytun ağacının yanına qaçdı, bu ağacın ətrafındakı çuxura qısılıb bir qədər istirahət etdi. Sonra italyanların atəşi altında başqa zeytun ağacına tərəf qaçdı və beləcə bir ağacdan o birinin yanına qaçmaqla bir qədər təhlükəsiz yerə çəkilə bildi. Nuru Paşa xatırlayırdı ki, yetişdiyi məkanda bir qoca qadınla qarşılaşdı və həmin qadının ona verdiyi suyu içdikdən sonra bir qədər özünə gəldi. Ətrafdakılar Nuru bəyin şəhid olduğunu güman edirdilər. ... Xəlil bəyə də bu barədə xəbər verilmişdi. Xəlil bəy də Nuru bəyi axtarıb tapana mükafat vəd etmişdi. Yerli ərəblər mükafatı əldə etmək üçün Nurunu axtarmağa başladılar və onu sağ-salamat tapıb Xəlil bəyin qərargahına gətirdilər." [7, s. 19] Daha sonra kitabda 1918-ci ilin ilk yarısında Qafqazdakı hərbi-siyasi şərait təsvir olunur. Bu zaman çərçivəsində vəziyyətin gərgin olduğunu Bakı bolşeviklərinin silahlı hərbi dəstələr yaratmaq istiqamətindəki fəallığı ilə bağlı Leninin Şaumyana göndərdiyi teleqram göstərir. " əziz yoldaş Şaumyan ! Sizin möhkəm və qəti siyasətiniz bizi çox çətin vəziyyətin şübhəsiz tələb etdiyi çox ehtiyatlı bir diplomatiya ilə birləşdirin, onda biz qalib gələrik". [7, s. 22] Başqa sözlə deyilsə, 1917-ci ilin sonu və 1918-ci ilin əvvəllərində Azərbaycan əraziləri erməni-daşnak hərbi qüvvələrinin və onlar tərəfindən dəstəklənən bolşevik qüvvələrinin mühasirəsi və təhlükəsi altında idi. Daha sonra kitab hərbi yardm üçün Osmanlıya müraciət edilməsi, Nuru Paşanın Azərbaycana göndərilməsi, türk qoşunlarının gəlişi, onların qarşılanması, ilk görülən addımlar , hərbi qarşılaşmalar, Bakının azad olunması yolunda aparılan mübarizə və qalibiyyət yolu, Bakının azad edilməsi, Qafqaz İslam Ordusunun Qarabağ hərəkatı, ordunun ləğvi, şəhid olmuş türk əsgərlərinin məzarları, Nuru Paşanın həbsə düşməsi və onun ingilis həbsindən azad edilməsi, Azərbaycana dönüşü , sonrakı taleyi, həlak olması kimi məsələləri və Nuru Paşanın silahdaşları olmuş şəxslər haqqında olduqca geniş məlumatları ehtiva edir. Onun və Mehmet Rıhtımın redaktorluq etdikləri "Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu" adlı əsər Qafqaz İslam Ordusunun 90 illiyinə həsr olunmuşdur. Əsər üç bölmədən ibarətdir. Hər bölmə müəyyən başlıqlar altında fərqli şəxslərin yazılarından ibarətdir. Birinci bölmədə Pərvin Darabadinin "XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq geosiyasi münasibətlər sistemində" adlı, Anar İsgəndərlinin Azərbaycan Xalq Cümhuriyyəti və 1915-1920-ci illərdə azərbaycanda türk müsəlmanlara qarşı həyata keçirilən soyqırımları haqqında yazıları, Reha Yılmazın Birinci dünya müharibəsinin başlanğıcında Osmanlı dövlətinin Qafqaz siyasəti başlığı altında bir sıra məsələlərin-Qafqazdakı vəziyyət, Osmanlının Qafqaz siyasətinin həyata keçirilməsi, Cənubi Azərbaycan hərəkatı kimi məsələlərə dair yazıları, Musa Qasımlının bolşevik Rusiyasının Güney Qafqaz siyasəti, Antanta dövlətlərinin Güney Qafqaz siyasəti adı altında bir sıra vacib məsələlər haqqında yazıları, Mustafa Çolakın Almaniyanın Qafqaz siyasəti başlığında Almaniyanın Qafqaz planları, onun Osmanlı dövlətinə mane olma cəhdlərinə aid yazıları, Halil Balın Qafqaz cəbhəsində baş verən hadisələr, Ərzincan, Trabzon, Ərzurum, Ərdahan, Sarıqamış, Gümrü , Batum, Qars, Qarakilsənin azad edilməsi, hərbi əməliyyatlar, Tranzon və Batum konfransları barədə yazıları yer almışdır. İkinci bölmə sırf Qafqaz İslam Ordusunun təşkili və fəaliyyətinə həsr olunmuşdur. Bu bölmə altında Mehman Süleymanovun, Nasir Yüceerin, Altay Göyüşovun, Həvva Məmmədovanın yazıları yer almışdır. Mehman Süleymanovun yazıları QİO-nun strukturu, ordunun maddi təminatı, Göyçay, Salyan döyüşləri və digər döyüşlər, qarabağda erməni təcavüzünə qarşı aparılan mübarizə, Azərbaycan ordusunun möhkəmləndirilməsi üçün həyata keçirilən tədbirlər və s. haqqında məsələləri əks etdirir. Nasir Yüceerin yazıları isə Bakının azad edilməsi üçün görülən tədbirlər aparılan döyüşlər, nəticədə şəhərin azad edilməsi barədə yazıları ehtiva edir. Altay Göyüşovun yazıları isə QİO-nun Dağıstan hərəkatı haqqındadır. Havva Məmmədovanın yazısı isə Qarabağ general-qubernatorluğunun yaradılması və fəaliyyəti barəsindədir. Üçüncü bölmə isə Qafqaz İslam Ordusu haqqında materiallar, məlumatlar və sənədləri özündə əks etdirən müxtəlif şəxslərin yazılarından





ibarətdir. Bu yazılar içərisində Ənvər Paşanın Qafqaz İslam Ordusu ilə bağlı verdiyi qərar: " Qafqaz, Dağıstan, Türküstan və bütün Rusiyaya tabe islam ölkələrinin möhtac olduğu yardımın yaxından göstərilməsi üçün mərkəzi Tehran olmaqla adıçəkilən ölkələrə bir zabit heyətinin göndərilməsini lazım bilirəm. Bunun üçün Trablusqərbdən ( Liviya) geri qayıdan Nuru bəyin Tehran mərkəzi heyətinin rəisliyinə, polkovnik-leytenant Şövkət bəyin Dağıstana, mayor Nairn Cavad bəyin Əfqanıstana və uyğun gördüyünüz digər zabitlərin də Türküstan, Qafqaz və s. məntəqələrə göndərilməsi haqqındakı mühüm qərarınızın bildirilməsini, bu zabitlərin təşkilat üçün özləri ilə birlikdə beş-altı zabiti də götürməsini lazım bilirəm."[9, s.262-263] Nuru Paşanın raportu haqqında məlumat ilk dəfə Şövkət Sürəyya Aydəmirin Ənvər paşa ilə əlaqədar olan əsərində üzə çıxmışdı. " Əsli hər halda köhnə hərflərlə yazılan bu sənədin əlimizdəki nüsxəsi yeni hərflərlə yazılıb. Lakin makinada yazanın oxuya bilmədiyi üçün boş qoyduğu yerlər Nuru Paşanın əlyazması ilə və yenə də yeni hərflərlə doldurulmuşdur. Bu yazılarda islam ordusu hərəkatı başdan axıra qədər xülasə edilib." [9, s.263] Nuru Paşanın İslam Ordusu haqqındakı bu raportu 1918-ci ilin mart ayı- 1920-ci illər arasında Güney Qafqaz və xüsusilə Azərbaycanda baş verən hərbi-siyasi hadisələr haqqında məlumat vermək məqsədilə hazırlanmışdır. Bir başqa ifadə ilə Nuru Paşa həm Qafqaz İslam Ordusu komandanı kimi, həm də ondan sonrakı dövrdə Azərbaycanda yaşadığı və göstərdiyi fəaliyyətlərin bir təsviridir. Kitabın sonunda əlavələrdə Osmanlı ilə AXC arasında imzalanmış andlaşma, onun mətni, şəhidlərin siyahısı, hərəkət xəritələri və fotolar verilmişdir. Əsərdə əks olunan yazılar xronoloji sistem üzrə tərtib edilərək Qafqaz İslam Ordusunun Azərbaycan və Qafqazdakı fəaliyyətlərinin tarixi, ictimai-siyasi, mədəni istiqamətlərdəki səbəb və nəticələri ortaya çıxarılmağa çalışılmışdı. Hər bir mövzu elmi şəkildə incələnməklə bərabər obyektiv mövqedən də işlənilmişdir.

Mehman Süleymanovun " Qafqaz İslam Ordusu və Azərbaycan" adlı əsəri 5 fəsildən ibarətdir. İslam Ordusu komandanlığının Türkiyə Silahlı Qüvvələri Baş qərargahının Əsgəri Tarixi Strateji Etüd (ATAŞE) başqanlığının arxivində saxlanılan sənədlər əsasında problemi tədqiq edən müəllif, çox zəngin arxiv materiallarından istifadə etməklə, türk ordusunun Azərbaycana gəlməsi, onların buradakı fəaliyyəti, Türkiyə-Azərbaycan əlaqələrinin formalaşması barədə materialları üzə çıxarmış və ordu komandanlığının çoxsaylı arxiv sənədlərini olduğu kimi vermişdir. Əsər müstəqilliyin elan olunması ərəfəsində Qafqazda vəziyyət, hərbi şərait, milli tərkibli ordu hissələrinin vəziyyəti, erməni-daşnaklarının fəaliyyətləri, Qafqaz İslam Ordusunun yaranmasının tarixi zəruriliyi, onun strukturu, təminat və təchizat məsələləri, torpaqların azad olunması uğrunda aparılan savaşlar, əsgərlərin qəhrəmanlıqları, Bakının azad edilməsi yolunda baş verən döyüşlər, qurtuluş üçün edilən ilk cəhdlər, 15 sentyabr qələbəsi, QİO-nun Azərbaycan ordusunun yaradılması və möhkəmləndirilməsindəki fəaliyyəti, bu şanlı türk ordusunun ləğvinə dair mövzuları əhatə edir. Hər fəslin sonunda müəllif istifadə olunmuş mənbə və ədəbiyyat siyahısını vermişdir. Müəllif Bakının alınması ilə bağlı F. Xoyskinin Nuru Paşaya teleqramını bütünlüklə kitaba daxil etmişdir. " Qafqaz İslam Ordusu komandanı, səadətli Nuru Paşa həzrətlərinə! Komandanız altında bulunan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın başkəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətim zalihəmiyyəti-pərvəranələrizə və dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edərim" [6, s.360] Kitab eyni zamanda həmin illərdə Azərbaycandakı mürəkkəb hərbi-siyasi durumun bəzi qaranlıq məqamlarını aydınlaşdırmaq baxımından da böyük əhəmiyyət daşıyır. Müəllifin başqa bir əsəri - " Nuri Paşa" da diqqət önünə gəlməlidir. Kitab müstəqilliyimizin qorunmasında xalqımızın erməni-bolşeviklərin terrorundan azad edilməsində həlledici rol oynayan QİO-nun komandanı Nuru Paşanın həyatı və mübarizəsinə həsr edilmişdir. Burada Nuru Paşanın Qafqaza gələnə qədər keçdiyi yollar, QİO-nun yaradılması, onun silahdaşları, Bakıya qədər keçən yol, Bakı uğrunda döyüşlər, türk əsgərlərinin məzarları, Nuru Paşanın sonrakı taleyi haqında məlumatlar əksini tapmışdır. Kitabın sonunda mövzuya dair şəkillər də verilmişdir.[8]

Dəyərli əsərlərdən biri Minaxanım Təkləlinin və Mehmet Rıhtımın müəllifləri olduqları "Qafqaz İslam Ordusunun xronologiyası" əsəridir. Bu əsər bəhs olunan dövrün araşdırılmasında əvəzolunmaz yeri olan bir əsərdir. 2008-ci ildə çapdan çıxmış kitab 1914-cü il Birinci dünya müharibəsi zamanı Rusiyanın Osmanlıya müharibə elan etməsindən başlayaraq davam edən hadisələrin ardıcıllığını əks etdirir. Xronoloji ardıcıllıq Qafqazda baş verən hadisələrin də ardıcıllığını əhatə edir. [10]

Tarixşünaslıqla bağlı əsərlərdən biri Məhərrəm Zülfüqarlının " Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi Göyçay döyüşləri( iyun-iyul 1918)" əsəridir. Əsər Azərbaycan torpaqlarının azad edilməsi uğrunda aparılan döyüşlərdən bəhs edir. Kitabın əvvəlində tarixşünaslıqla bağlı məlumat verilmiş, ardınca 1917-ci il Fevral inqilabından sonra bölgədə yaranmış ictimai-siyasi vəziyyətin təsviri ilə davam edir. Birinci dünya müharibəsi illərində Qafqaz cəbhəsindəki vəziyyət, hadisələrin inkişafı, Bakıdakı durum, Mart soyqırımı, Qafqaz İslam Ordusunun köməyə gəlməsi, Göyçay döyüşü ərəfəsinə qədər olan ağır hərbi və ictimai-siyasi vəziyyət qeyd olunmuşdur. Eyni zamanda Pirəmşaq döyüşü, Birinci və İkinci Qaraməryəm döyüşləri, Göyçay döyüşü ətraflı təsvir edilmişdir. Kitabda bəzi şəxslərin xatirələri də verilmişdir. Həmçinin kitab şəkil və fotolarla da zəngindir.[14]

Tarixşünaslıq baxımından Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyalarının da rolu önəmlidir. Ensiklopediyanın ikinci cildində həmin dövrdəki siyasi, hərbi, ictimai vəziyyətin ağırlığı, Qafqaz İslam ordusunun yaranmasının siyasi və tarixi əhəmiyyəti, bu ordunun yaradılması, ordunun qəhrəmanlıq yolu, Bakının azad edilməsi, Qafqaz İslam Ordusunun Dağıstan hərəkatı, Qarabağ hərəkatı barədə məlumatlar öz əksini tapmışdır. [1;2]

Tədqiqatın tarixşünaslığı ilə əlaqədar Akif Aşırlının "Cümhuriyyət dövrü mətbuatında Qafqaz İslam Ordusu" qeyd edilməlidir. Əsərdə Qafqaz İslam Ordusunun gəlməsi, döyüş əməliyyatları, İslam ordusuna qarşı Almaniya-Rusiya təzyiqləri, Bakının azad olunması, Qarabağ hərəkatı, qafqaz islam ordusunun qafqazdan getməsinə dair mətbuat səhifələrində ək olunmuş yazılardan bəhs edir.[4]

Mövzunun tarixşünaslığı ilə bağlı dəyərli əsərlər sırasına Mustafa Görüryılmazın "Türk Qafqaz İslam Ordusu və ermənilər( 1918)" əsərini daxil etmək lazımdır. Əsər Qafqaz İslam Ordusunun Azərbaycan və Dağıstan hərəkatına, ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımılarının qarşısını almaq almaq yolundakı fədəkarlıqlarına həsr olumuşdur. Əsər giriş və on hissədən ibarətdir. Müəllif əsərində Qafqazın, Azərbaycanın tarixi coğrafiyası, XX əsrin əvvəllərində Osmanlıda yaranmış cərəyanlar, Birinci dünya müharibəsinə Osmanlının qoşulması, müharibə zamanında Qafqazdakı hərbi vəziyyət, Qafqaz Seymi, Trabzon və Batum konfransları, onların qərarları, Xalq Cümhuriyyətinin yaranması, türk ordusunun yardıma gəlməsi, bolşevik-daşnak qüvvələrinə qarşı aparılan mübarizə, Bakının qurtuluşuna dair məlumatları vermişdi. Əsərdə qurtuluşa dövlətlərin münasibəti də göstərilirdi. Almaniya tərəfindən " Bakının türklər tərəfindən sovetlərə təslim edilməsi" tələb edilir, [5, s.259-262] İngiltərə türklərin Qafqazda yerləşməsini özləri üçün "böyük təhlükə" hesab edir,[ 5, s.262-263] sovet Rusiyası Bakının qurtuluşunu " bir işğal və təcavüz" deyə qiymətləndirirdi. [5, s. 256- 259]. Əsərdə, eyni zamanda mətbuatda qurtuluşla bağlı yazıların dərc olunması, Qafqaz İslam Ordusunun sonrakı fəaliyyəti, Qafqazdan çıxarılması kimi məsələlər öz əksini tapmışdır. Kitabın sonunda xəritələrin, şəkillərin verilməsi də bu araşdırmanın tarixi əhəmiyyətini artırır.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. iki cilddə. I cild, Bakı, 2005, 440 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. iki cilddə. II cild, Bakı, 2005, 479 s.
3. Ağayev Y., Əhmədov S. İstiqlal yürüşü 1918. Bakı,2009, 416 s.
4. Aşırlı A. Cümhuriyyət dövrü mətbuatında Qafqaz İslam Ordusu. Bakı, 2007, 123 s.
5. Görüryılmaz M. Türk Qafqaz İslam Ordusu və ermənilər (1918). Bakı,2009, 419 s.
6. Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı,1999.
7. Süleymanov M. Nuru Paşa və silahdaşları. Bakı, 2014.
8. Süleymanov M. Nuri Paşa. Bakı, 2008.
9. Süleymanov M. Rıhtım M. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, 696 s.
10. Təkləli M. Rıhtım M. Qafqaz İslam Ordusunun xronologiyası. Bakı, 2008, 104 s.
11. Yaqublu N. Qafqaz İslam Ordusu Azərbaycanda. Bakı, 2013, 210 s.
12. Yaqublu N. Qafqaz İslam Ordusu və Nuru Paşanın Azərbaycanda izləri. Bakı, 2012, 156 s.
13. Yaqublu N. Bakının qurtuluşu. Bakı, 2010, 200 s.
14. Zülfüqarlı M. Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi Göyçay döyüşləri( iyun-iyul 1918). Bakı, 2017, 112 s.






**"CONTEMPORARY HOMELAND HISTORIOGRAPHY OF CAUCASIAN ISLAMIC ARMY"**

**Summary**


The article deals with books written about the Caucasus Islamic Army in contemporary times. This theme has become a vast research object. The article only addresses to the homeland historiography.


**"СОВРЕМЕННАЯ ОТЕЧЕСТВЕННАЯ ИСТОРИОГРАФИЯ КАВКАЗСКОЙ ИСЛАМСКОЙ АРМИИ"**

**Резюме**


В статье написано про тех книгах современных времён, которые посвящены Кавказской Исламской Армии. В современное время эта тема превратилась в актуальный объект исследования. Статья обращается лишь только к отечественной историографии.